**Qadın işıqdır, gözəllikdir, anadır, bacıdır, can yoldaşıdır, rəhbərdir, müəllimdir, hakimdir, həkimdir, döyüşçüdür, xidmətçidir. Günəşi planetlərin anası adlandırırlar. Hər ana da bir günəş, övladları isə onun planetləridir.**

Deyirlər, qadına budaq versən – ağac edər, çörək versən – süfrə edər, ev versən – yuva edər, sevgi versən – səni başına tac edər.

## Tanrının əmanəti

Qadın ürəyi sirli bir dünya, ən maraqlı kitabdır. Namus, ismət, abır-həya deyiləndə, ilk növbədə, qadın anılır. Qadın kölə kimi deyil, azad yaşamalı, ağrı-acıdan uzaq olmalıdır. Bu, hər birimizin, övladlarımızın rahatlığı və xoşbəxtliyi üçün açardır. Onların var olduğu günlər, aylar bayramdır.



# Hər ana bir günəşdir...



Çünki qadın ümid qaynağıdır. Qadınlar yerdəki ulduzlardır. Bəzən Günəş işığına həsrət yerlər qadın səsi, gülüşü, nəfəsi ilə işıqlanır, isinir. Qadın əli dəyən hər yan gözəlləşir.

Qadın Tanrının insanlığa ən böyük hədiyyəsi və əmanətidir. Buna görə də müqəddəsdir. Onu qorumaq, lazım gəldikdə yolunda can vermək lazımdır. Qadın ürəyi incidildikdə “ağlayan kamana bənzəyir”.

## Şəhid ana və körpə

Qadınların Vətən sevgisi övlad sevgisindən də güclüdür. Çünki yenidən uşaq dünyaya gətirmək, böyütmək olar, ancaq itirilmiş vətəni düşməndən geri almaq isə çox böyük itkilər bahasına mümkündür.

Bir türk qızının vətənpərvərliyi və övlad məhəbbəti haqqında olmuş bir faciəni danışım sizlərə (bu barədə yazını sosial şəbəkədən oxumuşam).

Şərifəni 16 yaşında ərə verirlər. Həyat yoldaşı toydan bir neçə gün sonra əsgərliyə yollanır və Çanaqqalada döyüşlərin birində şəhid olur. Bir neçə il sonra tək-tənha qalmasın deyə, Şərifəni kəndlərindəki topal Yusifə verirlər. Yusif cəbhədə sol ayağını və bir gözünü itiribmiş. Mərmi zərbəsinin təsirindən qulaqları da az eşidirmiş.

3 il sonra ailənin bir qızı olur, adını Əlif qoyurlar.

Bir gün paytaxt Ankaradan cəbhəyə kömək üçün təlimat gəlir. Təlimata görə, hər ailədən bir nəfər (kişi varsa kişi, yoxdursa qadın) silah-sursat daşımağa kömək etməlidir. Bu, Vətən çağırışı idi....

Şərifə qızını tapşıracaq adam tapmadığı üçün özü ilə aparmağa qərar verir..

1921-ci il, dekabr ayının son günlərində gənc Şərifə körpəsini kürəyinə sarıyıb yola çıxır. Az sonra Əlifi yorğana bürüyüb, top mərmilərinin arasına qoyur və yoluna davam edir. Az gedir, çox gedir... Nəhayət, bir tərəfdən qar, şaxta, digər tərəfdən aclıq gənc qadını əldən salır. Körpəsi də süd istəyir. Bu anlarda görür ki, top mərmiləri islanır. Buna görə də körpəsini bürüdüyü yorğanı açıb mərmilərin üstünə sərir. Körpəsini isə sinəsinə salıb, nəfəsi ilə isidir. Lakin çox çəkmir ki, şaxta 24 yaşlı ananı və körpə qızını dondurub buz heykələ çevirir...

Bu dəhşətli olay qadın vətənpərvərliyinin bir nümunəsidir.

Torpaqlarımızın bütövlüyü uğrunda oğullarımızla yanaşı, cəsur qızlarımız, analarımız da döyüşdülər və böyük qələbənin təmin edilməsinə yardımçı oldular. Ana var düşmənə qarşı 3, 4 oğul göndərdi. Gəlin var şəhid olmuş ərinin nəşini ağlamadan, mərdliklə öz əlləri ilə torpağa tapşırdı: “Vətən sağ olsun!” – dedi. İndi o qadınlar hər bir sahədə inamla işləyərək, Azərbaycanın yüksəlişinə çalışırlar.

Azərbaycan qadını hər zaman mərd, cəsarətli və fədakardır.

## Ömrümüzə ömür calayanlar

***Qadınsız ailənin işığı olmur.***
***Qadınsız ailənin sevinci,***
***gülüşü yarımçıq olur.***
***Qadın var, dünyanın xoşbəxtidi...***
***Qadın var, dünyanın bədbəxtidi...***
***Qadın var, sinəsində övlad dağı var...***
***Qadın var telləri ər əlinin***
***tumarına həsrətdi...***
***Qadın var, sevgisi daşa dəyib...***
***Qadın var, gözləri daim yollardadı...***

Bəzı qadınlar mələk kimidirlər. Onlar gözəlliyi, abır-həyası ilə könülləri fənh edər, ürəklərdə yuva salarlar. Qadınlar qara paltarda belə işıq saçarlar. Onlar böyük qüdrət sahibidirlər. Ürəkləri dəniz kimi, səma kimi genişdir. Amma o ürəklər daim narahatdır. Onlar haqsızlıq görəndə atəş saçarlar. O ürəklərdə təbiətin ən gözəl rəngləri birləşib. Buna görə qəlbləri zərif duyğularla aşıb-daşır. Ən gözəl şeirlər, ən gözəl nəğmələr də qadınlara ərməğan edilir. Çünki, böyük Atatürk demişkən, yerdəki bütün böyük əsərlərin müəllifi qadınlarındır. Onlar öz ömürlərini həyat yoldaşının, övladlarının və digər əzizlərinin ömürlərinə calayır, özlərini unudarlar:

***Ana ömrü – bir laylanın diliylə,***
***Sənə yanmış, mənə yanmış bir ömür.***
***Ana ömrü – körpəsinin əliylə***
***Yuxuları oğurlanmış bir ömür...***

***Bir parçası mətbəxlərə tökülmüş,***
***Bir parçası bələklərə bükülmüş.***
***Bir parçası xatirələr dumanı...***
***Bir parçası ər ömrünün qurbanı...***
***(Musa Yaqub)***

## 6 oğul anası

Ürəyi şəfqət və mərhəmətlə dolu idi. Əri Krım uğrunda döyüşlərdə iştirak edəndə gündüzlər tarlada çalışmış, gecələr əsgərlər üçün isti paltar toxumuşdu...

Sonra da 6 oğul böyütmüş, onlara ilk həyat dərsi vermişdi. Onları sevə-sevə, “boyunuza qurban olum”, deyə-deyə oxşamışdı. Bircə dəfə də “yoruldum” deməmişdi. Hər oğulun ürəyindən keçənləri gözlərindən oxumuşdu. Sinəsi nağılla, bayatı ilə dolu idi. Oğullarını şirin səsi, ətirli nəfəsi, bayatı və oxşamalarla yuxuya vermişdi:

***Laylay dedim gündə mən.***
***Kölgədə sən, gündə mən.***
***İldə bir dəfə qurban olur.***
***Sənə qurban gündə mən.***

***Laylay dedim boyunca.***
***Baş yastığa qoyunca.***
***Pardaxlan qızıl gülüm,***
***Bir qoxluyum doyunca.***

Oğullar yatmışdılar, ana isə yatmamışdı, Uca Tanrıya dua etmişdi, onların sabahını düşünmüşdü. 6 oğul o laylalarla, dualarla böyümüş, həyata atılmışdı... Oğullar atanı daha çox sevmişdilər. Ana isə bundan küsməmiş, təəssüflənməmişdi, əksinə, sevinmişdi. Çünki ürəyi çox geniş idi. Ürəyi elə geniş idi ki, dua edəndə həmişə belə deyərdi: “Allah hamının balasını xoşbəxt, minbudaq eləsin, mənim oğlanlarımı da!”

Bilirəm, bütün analar belədir...

Kaş sağ olaydın, Ana! Başımı dizin üstünə qoyub bu narahat dünyanın mənə verdiyi ağrıları unudaydım.

Harada qan-qada, ədalətsizlik varsa, dünyaya ilk çağırış, hökm edən qadınlar olur. Çünki onların səsində yerin-göyün hökmü var....

***Bayramınız mübarək, əziz qadınlar!***

***Səməd MƏLİKZADƏ***